Mayın 27-də "Ankara məktəbi" məktəb-liseyində xüsusi istedada malik uşaqlardan ən istedadlılarının biologiya və riyaziyyat fənləri üzrə yekun seçim turu keçirilib.

Tədbirdə təhsil naziri Misir Mərdanov çıxış edərək öncə istedadlı uşaqları son mərhələyə seçilmələri münasibətilə təbrik edib. Nazir Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"barədə məlumat verib və bildirib ki, əsas məqsəd ümumtəhsil müəssisələrində mövcud olan istedad potensialını vaxtında müəyyənləşdirib onun inkişafını təmin etmək üçün xüsusi tədbirlər həyata keçirməkdən, istedadlı uşaq və gənclərin inkişafına dövlət qayğısını gücləndirməkdən ibarətdir. Nazir, həmçinin proqramın icrası istiqamətində hazırda həyata keçirilən tədbirlərdən danışıb.

Sonra Misir Mərdanov qeyd edib ki, müvafiq işlər respublika fənn olimpiadaları üzrə münsiflər heyətləri tərəfindən qiymətləndiriləcək və yekun turda VIII-X sinif şagirdlərinin göstərdiyi nəticələr haqqında məlumat yerlərə göndəriləcək. Nazir istedadlı uşaq və gənclərlə iş sahəsində fəaliyyətləri tənzimləyən normativ hüquqi bazanın yaradılması, həmin kateqoriyadan olan uşaqların təhsilinə, onların inkişaf edib formalaşmasına dövlət qayğısının daha da gücləndiriləcəyindən də söz açıb.

Tədbirdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Yusif Məmmədov və akademik Urxan Ələkbərov istedadlı uşaqları təbrik edərək onlara bilik yarışında uğurlar arzulayıb.

Məlumat üçün onu da qeyd edək ki, biologiya fənni üzrə yekun turda respublikanın ümumtəhsil məktəblərindən 221, riyaziyyat fənni üzrə isə 330 nəfər iştirak edib.